# Ümumtəhsil məktəblərində dərs ilinə yekun vuruldu

2014—2015-ci dərs ilini Qəbələ rayonunun təhsil işçiləri uğurla başa çatdırmışlar. Təhsildə həyata keçirilən ardıcıl islahatlar nəticəsində tədrisin səviyyəsi qat-qat artmış, ümumtəhsil məktəbləri üzrə əldə edilən müvəffəqiyyət faizi yüksəlmişdir. Belə ki, ötən dərs ilində rayonda fəaliyyət göstərən ümumtəhsil məktəbləri üzrə müvəffəqiyyət 99,2 faiz, keyfiyyət isə 65 faiz olmuşdur. Daha yüksək keyfiyyət göstəricilərinə şəhərin 1, 3, 4 saylı, Vəndam qəsəbə 1, 2 saylı, Bunud, Çarxana, Həmzəli, Tüntül, Nohurqışlaq, Zarağan kənd tam orta məktəblərinin pedaqoji kollektivləri nail olmuşdur.

Dərs ilində 16131 nəfər şagirdin tədrisi ilə 2319 nəfər müəllim məşğul olmuş, dərs ilinin sonunda isə şagirdlərin sayı 16.059 nəfər olmuşdur. İl ərzində ümumtəhsil məktəblərindən, 300 nəfər şagird getmiş və 228 nəfər şagird rayon məktəblərinə gəlmişdir. Yola saldığımız dərs ilində biliyi qiymətləndirilən şagirdlərin sayı 15833 nəfər, onlardan əla qiymətlərlə oxuyan şagirdlərin sayı 4252 nəfər «4 «və «5» qiymətlə oxuyanların sayı isə 6.055 nəfər olmuşdur. IX siniflər üzrə buraxılış imtahanlarının nəticələri 60,54 faiz, XI siniflər üzrə isə 58,35 faiz təşkil etmişdir. Bu da əvvəlki dərs ili ilə müqayisədə 5,36 faiz çoxdur.

Ötən dərs ilində təhsil sisteminin informasiyalaşdırılması sahəsində görülən işlər qənaətbəxş olmuşdur. Hazırda rayonun təhsil ocaqlarında olan kompyuterlərin sayı 613-ə çatdırılmış, tam orta məktəblərin 43-də kompyuter sinifi fəaliyyət göstərmişdir. Eyni zamanda 53 tam orta məktəb internetə qoşulmuşdur. Beləliklə, təhsilə aid proqramların yerlərdə çevik işlənilməsinə ilkin və əlverişli şərait yaradılmışdır.

Dərs ilində pedaqoji işçilərin ixtisas və peşə hazırlığının təkmilləşdirmə istiqamətində ardıcıl iş aparılmış və yeni təlim metodlarını öyrənmək üçün 16 nəfər müəllim Azərbaycan Müəllimlər İnstitunun Bakı və Şəki şəhərində fəaliyyət göstərən ixtisasartırma kurslarından keçmişlər.

Azərbaycan Respublikası Prezidentinin 17 aprel 2006-cı il tarixli sərəncamına uyğun olaraq istedadlı şagirdlərin üzə çıxarılması, onların bilik və bacarıqlarının inkişaf etdirilməsi sahəsində keçirilən tədbirlərdə şagirdlərimiz yüksək fəallıq göstərmiş və respublika səviyyəsində keçirilən müsabiqələrdə, yarışlarda, fənn olimpiadalarında uğurlu nəticələr qazanmışlar. Fənn olimpiadalarının aprel ayında Bakı şəhərində keçirilən respublika turu Qəbələ məktəbliləri üçün də uğurlu olmuş, şagirdlərdən 1 nəfəri qızıl, 1 nəfəri gümüş, 3 nəfəri bürünc medalın sahibi olmuşdur. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə keçirilən respublika inşa müsabiqəsində şəhər 3 saylı tam orta məktəbin X sinif şagirdi Məlahət Nəsirli qalib gəlmiş və Təhsil Nazirliyinin 1-ci dərəcəli diplomu ilə təltif olunmuşdur. Ötən dərs ilində müəllimlərin müxtəlif peşə layihələrində iştirakına xüsusi diqqət yetirilmişdir. Bununla belə artıq 2 ildir ki, şəhərin 1 və 3 saylı tam orta məktəblərində ingilis dilinin intensiv tədrisi ilə bağlı pilot layihə həyata keçirilir. Bu layihədə fərqlənən şəhərin 3 saylı orta məktəbin ingilis dili müəllimi Aygün İsmayılova yüksək nəticələrə görə Böyük Britaniyaya təlim kurslarına dəvət almış və mart ayında Təhsil Nazirliyinin xətti ilə həmin təlimlərdə iştirak etmişdir.

Vəndam 1 saylı tam orta məktəbin riyaziyyat müəllimi Zöhrə Mirzəliyeva may ayında qardaş ölkə Türkiyənin təlim texnologiyaları konfransına dəvət almış, həmin konfransda elmi-metodik məqalə ilə çıxış etmiş və konfransdan sonra keçirilən treninqlərdə müxtəlif nominasiyalar üzrə 4 sertifikat almışdır.

Gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında, gələcəkdə onların cəmiyyətin aparıcı qüvvəsi kimi yetişməsində hərbi və idman oyunlarının çox böyük əhəmiyyəti vardır. Bu məqsədlə Dövlət Sərhəd Xidmətinin Təhsil Nazirliyi ilə birgə keçirdiyi «Sərhəd» hərbi idman oyunun yekununa görə Abrıx kənd tam orta məktəbinin komandası III yerə layiq görülmüşdür.

Yüngül atletika üzrə İsmayıllı şəhərində keçirilən yarışda şəhər 3 saylı tam orta məktəbin 8-ci sinif şagirdi Rafiq Cəfərov 1-ci yerə, boks üzrə Balakən şəhərində keçirilən idman yarışında şəhər 4 saylı tam orta məktəbin VII sinif şagirdi Namiq Yaralıyev 1-ci yerə, sərbəst güləş üzrə Balakən şəhərində keçirilən yarışda şəhər 3 saylı orta məktəbin şagirdi Vüqar Səlimov II yerə, taekvando üzrə Qax şəhərində keçirilən yarışda Zarağan kənd tam orta məktəbin VIII sinif şagirdi Cavid Əzizov 1-ci yerə layiq görülmüşdür.

2014-2015-ci dərs ilində Heydər Əliyev mərkəzində ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətinin, eləcə də ulu öndərin liderlə bağlı yaxın tariximizi şagirdlərə öyrədilməsi məqsədilə müntəzəm dərslər təşkil olunmuşdur. Rayonumuzun bütün ümumtəhsil məktəblərini əhatə edən bu dərslərə XI sinif şagirdləri cəlb edilmşdir. Dərslər yüksək fəallıqla, maraqlı diskusiya şəraitində keçmiş, şagirdlər Heydər Əliyevin bütün sahələr üzrə ensiklopedik irsinin, həmçinin ölkəmizin tarixini böyük həvəslə öyrənmişlər.

Hazırda bütün məktəblərdə dərs ilində görülən işlərə yekun vurulur, qarşıdan gələn növbəti dərs ilinə hazırlıq işlərinə başlanmışdır. Söz yoxdur ki, rayonun təhsil işçiləri ötən dərs ilini yüksək göstəricilərlə başa çatdırdığı kimi, yeni dərs ilində də tədrisin keyfiyyətini daha da yaxşılaşdıracaq, təhsil islahatlarında qarşıya qoyulan tələbləri layiqincə icra edəcəklər.

**Aslan CƏLİLOV.**

# Fəxr edirəm

Həzrəti Məhəmməd Peyğəmbər (s) buyururdu ki, sizlərin ən yaxşısı Quranı öyrənən və onu başqalarına öyrədəndir. Mən deyərdim ki, Laçın Quliyev Allah qatında öz yeri olan insanlardan yaxşılardan biridir. Mən Laçının ibtidai sinif müəllimi olmuşam. Davranışı ilə uşaqlar arasında seçilən Laçın ağıllı və olduqca çevik uşaq idi. Hiss olunurdu ki, onun parlaq gələcəyi var. Elə düşündüyüm kimi də oldu.

Laçın Ədalət oğlu Quliyev 10 avqust 1983-cü il tarixdə Bum qəsəbəsində (o vaxt kəndində) sadə bir sürücü ailəsində anadan olub. 1989-cu ildə Bum orta məktəbin 1-ci sinifinə daxil olub. Laçın 9-cu sinfi bitirdikdən sonra Şəki İslam Elmləri üzrə hafizlik mədrəsəsinə daxil olmuşdur. Yüksək bacarığa və istedada malik olan L. Quliyev 1998-1999-cu illər ərzində Bakıda keçirilən yarışlarda fəal iştirak etmişdir. Elmə, oxuyub öyrənməyə hədsiz marağı olan Laçın təhsilini artırmaq məqsədi ilə İstanbulda kurslardan keçmişdir. Şəkidə oxuyan zaman Məkkədə, Mədinədə, Çiddədə keçirilən dünya yarışında iştirak edən Laçın 2-ci və 3-cü yerlərə layiq olmuşdur,

L.Quliyev 2001-ci ildə Bakı İslam Universitetinin Zaqatala şöbəsinə qəbul olunmuşdur. Təhsildəfərqlənən Laçın dəfələrlə universitetin rəhbərliyi tərəfindən mükafatlara layiq görülmüşdür. Ərəb dilini əla bilən eloğlumuz 2003-cü ilin oktyabr ayında Səudiyyə Ərəbistanında olmuş, orada ilk Azərbaycan nümayəndəsi kimi «Qurani Kərim» yarışında iştirak etmiş və diploma layiq görülmüşdür. 2003-cü ildə universitetdə keçirilmiş yarışda birinci yeri tutmuşdur. Hafiz Laçın Quliyev 2004--cü ildə Türkiyənin İstanbul şəhərində bir aylıq ixtisasartırma kursundan keçmişdir.

2005-ci ildə Azərbaycan Quransevərlər Cəmiyyətinin «Quran» yarışında fəal iştirak etmişdir. O, burada da fərqlənmişdir. Hacı Laçın Quliyevin fəaliyyəti barədə «İrfan» jurnalının 2014-cü ilin iyun nömrəsində maraqlı yazı dərc olunmuşdur.

Bəli, 2005-ci ildə İslam Universitetini bitirən Laçın həmin ilin iyul ayında hərbi xidmədə çağırılmış və xidməti borcunu da ləyaqətlə başa vurmuşdur.

O, 2006-cı ildə Siviyada keçirilən Beynəlxalq Qurani- Kərim müsabiqəsində iştirak etmişdir. Hal-hazırda İslam Universitetinin Zaqatala şöbəsinin müəllimi olan L.Quliyev 2007-ci ildə müqəddəs Həcc ziyarətində olmuşdur.

Laçın müəllim 2009--2010-cu tədris ilində Türkiyədə Qurani- Kərimin 10 qiraəti üzrə ixtisasartırma kursunda iştirak etmişdir. Bununla belə, Azərbaycanda keçirilən İslam Konfransı Gənclər formunun açılışında, Türkiyə-- Azərbaycan dostluğu gecəsində və dünyanın 10 müsəlman sahibkarlarının mükafatlandırılması kimi tədbirlərdə açılış Quranı oxumuşdur.

Bəli, qəlbindəki Allaha olan istək və doğmalıq bu balacaboy Laçını günbəgün belə yüksək səviyyələrə qaldırır.

Dindar bir ailənin övladı olan Laçının iki qız övladı var.

Haqq yolçusu olan Laçın Quliyevlə bu gün mən öyünür və fəxr edirəm. Çünki onun üzərində mənim zəhmətim və haqqım vardır.

Arzum isə Laçını daha uca zirvələrdə görmək və onun xoş sədalarını eşitməkdir.

**Emin BARATOĞLU,**
**AJB və AYB-nin üzvü.**